**MƏDƏNİYYƏT DÜNYASI**
Elmi-nəzəri məcmuə
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti,
XXXVII buraxılış, Bakı, 2019

**МИР КУЛЬТУРЫ**
Научно-теоретический сборник
Азербайджанский Государственный Университет Культуры и Искусств,
XXXVIIвыпуск, Баку, 2019

**THE WORLD OF CULTURE**
Scientific-theoretical bulletin
Azerbaijan State University of Culture and Art, XXXVIIedition, Baku, 2019

**UOT-792.03; 792.07**

**Nərminə Ağayeva**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent**
**AMEA Memarlıq və İncəsənət İnstitutu**
**AZ1073, Bakı ş., H.Cavid pr., 115**
**E-mail: nermine2014@mail.ru**

# TEATRŞÜNASLIQDA METOD PROBLEMİ: QAVRAYIŞ VƏ ANLAMA

**Xülasə:** Məqalədə 1950-1960-cı illər Azərbaycan teatr tənqidinin ümumi vəziyyəti araşdırılır. Bu illərdə tənqid sahəsində fəaliyyət göstərən filoloq alim - Məmməd Arifin, yazıçı və dramaturq – Səməd Vurğunun teatr tamaşaları haqqındakı məqalə və resenziyaları, məruzə və çıxışları təhlil edilir.
**Açar sözlər:** tamaşa, teatrşünaslıq, tənqid, Məmməd Arif, Səməd Vurğun.

Milli ədəbiyyat və mədəniyyətimizin yaxşı biliciləri, klassik rus və dünya dramaturgiyasına yaxından bələd olan alimlərimizin - Məmməd Arifin, H.Mehdinin, M.Rəfilinin, Ə.Sultanlının, Məmməd Cəfər Cəfərovun, Cəfər Cəfərovun, Əkbər Ağayevin və b. xidmətləri böyük olmuşdur. Onların yazdıqları məqalə və resenziyalardan aydın göründüyü kimi, onlar teatrlarımızın ümumi yaradıcılıq məsələlərindən başlamış, tamaşalardakı ən adi hallara qədər, hər şeyə öz münasibətlərini bildirirlər. Səhnə hərəkəti, səhnə mədəniyyəti, səhnə texnikası, dil, danışıq, tələffüz və s. cəhətlər onların yazılarında obyektiv qiymətini alırdı.

Teatr tənqidi sahəsində fəaliyyət göstərən filoloq alimlərimizdən biri Məmməd Arif Dadaşzadə idi. Onun bu sahədəki xidmətləri, əhəmiyyətli fəaliyyəti, teatrımızın, səhnə sənətimizin inkişafında xidmətləri barədə düşünərkən filologiya elmləri doktoru, professor Yaşar Qarayevin bu sətirləri yada düşür: “Məmməd Arifin şəxsiyyətini, istedadının xarakterini, ədəbi prosesin mənzərəsində tutduğu mövqeyi bir söz daha aydın ifadə edir. Sabitlik! Düz 30 ildir ki, bu ad bədii tənqidimizin sabit

bir sambal və ağırlıq mərkəzini elmi nüfuz və mötəbərlik ünvanını nişan verir". Bəli, bu nüfuz və mötəbərlik teatr tənqidimizin ünvanında da özünü göstərir. Onun teatr haqqında məqalələrində hər şeydən əvvəl obyektə dərin məhəbbət, hörmət hiss olunur. Dərin savad, yüksək mədəniyyət, obyektivlik və prinsipiallıqla birləşir. Doğrudur, Məmməd Arif teatr haqqında ədəbi tənqid sahəsində olduğu qədər çox yazmamışdır. "Dumanlı Təbriz", "Bahar suları", "Solğun çiçəklər", "Antonio və Kleopatra" tamaşaları haqqında resenziyalar, "Rus klassiki Azərbaycan səhnəsində" məqaləsi, "A.M.Şərifzadə haqqında qeydləri", "Azərbaycan xalq teatrı" adlı məqaləsi görkəmli alimin bu sahədəki fəaliyyətinin kəmiyyət tutumunu özündə birləşdirir. Lakin bu kəmiyyət o qədər yüksək keyfiyyət kəsb edir ki, haqlı olaraq onun yaradıcılığında "Məmməd Arif və teatr" bölməsinin tədqiqinə və şərhinə ehtiyac hiss olunur. Məmməd Arifin teatr haqqında yazılarında teatr sənətini sevən, onun müvəffəqiyyətinə sevinən, çatışmazlıqları vaxtında aradan qaldırmağa səy göstərən alim-insanın ürək çırpıntıları aydın hiss olunur. Dərin və obyektiv təhlil, sənətə aydın və vicdanlı münasibət onların əsasını təşkil edir. O, özünə məxsus sadə, səmimi və eyni zamanda prinsipiallıqla müvəffəqiyyətli cəhətləri qeyd etdiyi kimi, nöqsanları da açıb göstərir, onları aradan qaldırmağın yollarını öyrədirdi. Tutarlı, köklü-əsaslı tənqidini o, o qədər səmimi və təvazökarlıqla söylədirdi ki, tənqid olunan ona qarşı yalnız minnətdarlıq və hörmət hissi duyurdu. M.Arif səhnə xadimlərindən, tamaşa yaradıcılarından realizm, həyatilik, təbiilik, inandırıcılıq tələb edirdi.

Məsələn, Azərbaycan Dövlət Akademik Dram teatrının 1945-ci ildə hazırladığı "Dumanlı Təbriz" tamaşası haqqında yazdığı məqalədə Məmməd Səid Ordubadinin təqdim etdiyi zəngin dramatik materialı diqqətlə işləyib maraqlı bir qəhrəmanlıq tamaşası yaradan" (1) teatrın işini təqdir edən, rejissor işinin, aktyor ifasının təhlilini verən tənqidçi Hacı Salman və Hacı Mehdi obrazlarının tamaşada şərhini tənqid etməklə tamaşanın ideya, məfkurə yetkinliyini təmin etməyə çağırmışdı. O çox aydın bir şəkildə qeyd etmişdi ki, Ağasadıq Gəraybəyli ilə Mirzağa Əliyevin ifa etdikləri Hacı Mehdi və Hacı Salman yalnız gülünc deyil, həm də fəlakətli və dəhşətlidirlər. Zahirən tamahkar və mənsəbpərəst görünən bu adamlar mahiyyət etibarilə çox yırtıcıdırlar, millət və vətən xainidirlər. Məmməd Arif teatra və xüsusilə həmin rolları ifa edən aktyorlara göstərirdi ki, bu obrazlara yalnız gülmək kifayət deyil, onlara dərindən nifrət etmək lazımdır. Bu tiplərin xalqa qatı və qəddar düşmən olduqlarını, bir girvənkə qənd üçün Təbriz kəndlisinin başını kəsməyə, yüz tümən pulla Səttarxanın kürəyinə xəncər salmağa hazır olduqlarını göstərmək, onların səciyyələrini son inkişaf nöqtəsinə çatdırıb tam mənası ilə ifşa etmək və beləliklə də onların bədii-ictimai məzmununu dərinləşdirmək lazımdır.

M.Arifin 1946-cı ildə Moskvada keçiriləcək rus klassiklərinə baxış münasibətilə yazdığı "Rus klassiki Azərbaycan səhnəsində" adlı yazısında "dünya klassiklərinin tükənməz xəzinəsindən istifadə edərək böyük insan hissi və ehtirasını ifadə edən bədii surətləri daha böyük bir həvəslə səhnədə təcəssüm etdirən" Otello, Hamlet, Kral Lir, Romeo, Frans Moor və digər obrazları qüvvətli bir cazibə ilə canlandıran, tamaşaçını həyəcanlandıran, tərbiyələndirən Azərbaycan teatrının fəaliyyətinə dəqiq nəzər salır və belə doğru nəticəyə gəlir ki, "böyük ehtiraslar, zəngin səciyyələr, ictimai toqquşmalar Azərbaycan teatrını daha çox maraqlandırmış, bu aləmi əks etdirən əsərləri bacarıqla tamaşaya hazırlamışdır. Tənqidçi öz məqaləsində Katerina ("Tufan") və Larisa ("Cehizsiz qız") obrazlarını təhlil edir,

aktyor ifasının gözəlliyindən danışır. Ostrovski tipləri içərisində ən faciəvisi olan Larisa rolunda Fatma Qədrinin ifa tərzindəki cazibədarlığı, düşüncəliyi, dərin hissləri göstərir. Mərziyə xanımın Kruçinina rolunu təhlil edir.

“Solğun çiçəklər” tamaşasından, quruluşçu rejissor Əliheydər Ələkbərovun orijinal işindən, aktyorlardan M.Davudovanın (Gülnisə), Məxluqə Sadıqovanın (Pəri), İ.Dağıstanlının (Bəhram), L.Bədirbəylinin (Sara) və M.Mərdanovun (Əbdül əmi) ifalarını təhlil edən tənqidçinin “Görünür ki, biz Cabbarlı yaradıcılığının bir əsas cəhətini unudur və az qiymətləndiririk. Bu cəhət onun ilk əsərlərində də özünü göstərən həyatilik və realizmdir” - fikri teatr kollektivinin Cabbarlı yaradıcılığının ilk dövr aləminə gözünü açdı, onları bu barədə daha dərindən düşünməyə vadar etdi.

Məmməd Arif 1950-ci ildə yazdığı “Azərbaycan xalq teatrı” adlı məqaləsində xalq teatr sənətinin xüsusiyyətlərini bir nəzəriyyəçi, bu sahədə gözəl səriştəsi olan bir alim kimi şərh edir. “Ailə və məişət mərasimləri”, “Oyun və tamaşalar”, “Xalq teatrı” bölmələrinin hər birinin xarakter və mahiyyətini açıb göstərir.

Məmməd Arifin Abbas Mirzə Şərifzadə haqqında xatirəsini oxuyanlar yaxşı hiss edirlər ki, həmin yazıda sənətə və sənətkara nə qədər böyük bir məhəbbət vardır. “Mənim o böyük istedad haqqında yazdıqlarım xatirədən çox təəssürat olacaqdır” (2, s.87) - deyən M.Arifin güclü bir teatrşünaslıq qələmi ilə A.M.Şərifzadənin Otello, Maqbet, Hamlet, Aydın, Oqtay, Elxan, Şeyx Sənan, İblis obrazlarını təhlil edir və belə bir nəticəyə gəlir ki, romantik əhval-ruhiyyəli bir aktyor olan A.M.Şərifzadənin qəhrəmanlarının çoxu öz dövrünün irəlidə gedən adamı, qəlbi böyük arzularla dolu, xəyalpərvər şəxsiyyətlərdir. Romantik qanad aktyorun təcəssüm etdirdiyi qəhrəmanların ictimai fəallığına, nikbinliyinə kömək edirdi. Onun qəhrəmanları həyatın əzablı yollarındankeçirdilər. Aktyor onların mənəviyyatındakı tufanları bizə göstərirdi.

Bu cəhət də əhəmiyyətli idi ki, M.Arif teatrın ümumi yaradıcılıq həyatından heç vaxt ayrılmırdı. Ədəbiyyatımızın ümumi mənzərəsini, onun inkişafını bütün varlığı ilə **duyduğu** kimi teatrı da beləcə duyurdu. Ədəbiyyata gələn hər bir yeni istedaddan xəbər tutduğu kimi, teatrdakı yeni rejissor, yeni aktyor da onun nəzərindən yayınmırdı; hazırlanan hər bir tamaşadan qabaqcadan xəbər tuturdu. O həm də ən gözəl, etibarlı bir tamaşaçı idi. Teatra, onun yaradıcı kollektivinə alim, vətəndaş qayğısı ilə yanaşırdı.

Həmin dövrün teatr tamaşaları haqqında çıxış edən filoloq alimlər, eləcə də dramaturqlar arasında Mehdi Hüseyn, Səməd Vurğun, İlyas Əfəndiyev, Mirzə İbrahimov, Əli Sultanlı, Sabit Rəhman, Ənvər Məmmədxanlı, Əkbər Ağayev xüsusilə fərqlənmişlər. Bu sənətkarlar sonralar da teatrlarımızın yaradıcılıq həyatı ilə bağlı olmuş, ayrı-ayrı tamaşalar və aktyorlar haqqında, eləcə də səhnə sənətimizin problem məsələləri barədə çıxış etmişlər; onlardan hər biri bu barədə seçilmiş məqalələrini kitab şəklində çap etdirmişlər. Əlbəttə, onların hər biri ayrı-ayrılıqda namizədlik dissertasiyası üçün mövzu ola bilər. Ancaq mövzumuzun tədqiqat çərçivəsində biz onların yalnız 1960-cı ilə kimi yazdıqları teatr tənqidinə aid məqalələrindən, resenziyalarından bəhs etmək imkanına malikik. Özü də həmin yazıları ilk məxəzdə olduğu kimi götürür, sonralar müəyyən düzəlişlərdən, səhihlərdən sonra çap olunmuş nüsxələrinə toxunmuruq. Bizcə, bu daha məqsədəuyğundur, dövrün siyasi, ədəbi, ictimai ab-havası haqqında daha düzgün təsəvvür yaratmaqla yanaşı, məqalə müəlliflərinin o vaxtkı dünyagörüşü, mövqeyi, sənət haqqında düşüncələri barədə düzgün təsəvvür yaradır.

Görkəmli şair-dramaturq Səməd Vurğunun da bu sahədəki xidmətləri böyük

olmuşdur. "Koroğlu" M.F.Axundov adına teatrın səhnəsində" adlı yazısı S.Vurğunun tamaşa haqqında ilk məqaləsidir. Bundan sonra S.Vurğun özünün "Vaqif" pyesinin tamaşası haqqında yazısını (3), dörd ay sonra isə Kapler və Zlatoqorovanın "Lenin" əsərinin tamaşası haqqında məqaləsini çap etdirib. "Səhnəmizdə Lenin" məqaləsindən sonra S.Vurğunun 1948-ci ilə kimi teatr tamaşaları barədə yazıları çap olunmayıb. Lakin teatrşünas alimlərin yazdıqları kimi şairin bu sahədəki estetik görüşləri baxış tamaşalarının müzakirəsi zamanı söylədiyi mülahizələrində, Azərbaycan yazıçılarının plenumlarındakı (iyun 1945, oktyabr 1946) çıxışlarında öz əksini tapıb. 1941-ci il yanvarın 21-də S.Rəhmanın "Xoşbəxtlər" komediyasının baxış tamaşasının müzakirəsində (şairin bu çıxışını filologiya elmləri namizədi Rafiq Vəkilov tapıb, "tamaşaçının qeydləri" adı ilə "Ədəbiyyat və incəsənət" qəzetinin 1 yanvar 1972-ci il tarixli nömrəsində çap etdirmişdir) birinci çıxış edən S.Vurğun "Xoşbəxtlər"i həssas ürəklə yazılmış,olduqca maraqlı bir xətt üzrə inkişaf edən əsər kimi qiymətləndirir, burada mahir bir sənətkarın qələm ustalığı, özünəməxsus yaradıcılıq xüsusiyyətlərinin bariz bir şəkildə göründüyünü söyləyir və qeyd edir ki, S.Rəhman "bir dramaturq kimi yaşamalı və inkişaf etməlidir. Şair həmin çıxışında teatrımızın repertuar və sənət nöqteyi-nəzərindən böyük cəsarət və yaradıcılıqla irəli getdiyini, ümumittifaq miqyasında "orijinal simaya malik qabaqcıl" teatr olduğunu sevinc və iftixar hissi ilə qeyd edir.

S.Vurğun "Otello" tamaşası haqqında" adlı məqaləsində tamaşanı yüksək qiymətləndirərək yazmışdı ki, "Otello" tamaşası bizim səhnə mədəniyyətinin, səhnə yaradıcılarınınzənginliyini bir daha nümayiş etdirdi. Bu teatr kollektivimizin gələcəkdə daha iri addımlar ata bilmək qüdrətini də göstərdi. Bizcə bu tamaşanın gözəllik və mənası, onun mədəniyyət və sənət səviyyəsi Azərbaycan dram sənətinin milli çərçivəsindən kənara çıxır, ümumittifaq əhəmiyyəti qazanır.

"Solğun çiçəklər" tamaşası haqqında poetik bir dillə yazdığı məqaləsində "böyük bir dövlətə özünü və qızı Pərini (M.Sadıxova) varis etmək üçün ərinə zəhər verib öldürən Gülnisənin" (M.Davudova) cinayətini, "özünün və sevimlisinin taleyini yaşatmaqdan aciz olan", "hiyləyə hiylə ilə", "cinayətə cinayətlə" cavab vermək istəyən milyoner oğlu Bəhramın (İ.Dağıstanlı) vəziyyətini, "şairanə, sakit, ancaq gözəl hisslərlə yaşayan, fəqət "analığının "iblisliyi" üzündən şam kimi sönən" Saranın (L.Bədirbəyli) faciəsini kapitalizmin iyrənc təbiətində görən S.Vurğun yazmışdı ki, "biz bu kiçik ailənin faciəsini seyr etdiyimiz zaman bütün əsrin, bir ictimai quruluşun faciəsini görürük. Tamaşanın "konkret bir səslə, nəfəslə yaradıldığını" söyləyən S.Vurğun sənətin təlqinedici və təsiredici gücünü qeyd etmişdi: "Mən bu tamaşadan sonra şəxsən özümün və dramaturq yoldaşlarımın xalqımız və teatrımız qarşısında nə qədər borclu olduğumu hiss etdim". Həmin məqaləsində S.Vurğun o vaxt gənc olan istedadlı dramaturq İlyas Əfəndiyevin "Bahar suları" əsərini və onun tamaşasını da yüksək qiymətləndirir. Buradakı obrazların "qəlbində gözəl, xeyirxah hisslər, həyat və mübarizəsində adamlarımızın əməl və arzularını, xalqa, vətənə yeni, həm də şairanə münasibətini" gördüyü üçün onları sevinclə və şadlıqla qarşılayır.

Müasirliyi və ideyalılığı sənətin əsas meyarı hesab edən S.Vurğun "Mən də dramaturq olmalıyam" - deyə ucuz şöhrət axtaran, özündən müştəbehləri tənqid edir, mövzu genişliyi barədə danışır, "dünya klassiklərinin bədii xəzinəsindən istifadə" etməyi, "Azərbaycan klassik dramaturgiyasına xüsusi bir eşqlə münasibət" bəsləməyi, "Müasir həyatımızın bədii ifadəsini verə bilən", "ölkəmizdə gedən böyük iqtisadi

quruluşları yaradan insanların zəngin mənəviyyatını əks etdirən dolğun əsərlər yazmağı" lazım bilirdi.

Bu cəhəti də qeyd edək ki, ədib teatr haqqında məqalələrində, çıxışlarında, söhbətlərində tez-tez böyük rus tənqidçisi V.Q.Belinskiyə müraciət edir, onun yazılarından misallar çəkir. Bu ümumiyyətlə rus tənqidi fikrinə, xüsusilə Belinski yaradıcılığına S.Vurğunun hörmətindən irəli gəlirdi. İş burasındadır ki, S.Vurğun teatr sənətinin bütün komponentləri haqqında obyektiv fikir irəli sürmüşdür. Ümumittifaq Yazıçılar İttifaqının II plenumunun yekunları və Azərbaycan ədəbiyyatının gələcək vəzifələri barədə məruzəsində "Dramaturgiya və teatr", "Biz və tarixi keçmişimiz", "Xeyirli və mənalı gülüş" bölmələrində görkəmli ədib teatrımızın qarşısında duran mühüm problemlərə, o cümlədən dramaturq və teatr, dramaturq və rejissor, dramaturq və aktyor, teatr və tamaşaçı məsələlərinə toxunmuş və göstərmişdi ki, hər hansı bir teatrda mədəniyyət və yaradıcılıq səviyyəsi əsasən dramaturgiya ilə müəyyənləşir. Böyük dram əsəri olmadan böyük rejissor da, qüvvətli aktyor da ola bilməz. Odur ki, dramaturq teatra onun arxasında gizlənmək üçün deyil, bəlkə öz əsərinin qabaqcıl birmütəfəkkiri kimi gəlməli, teatrın bədii zövqünə, sənət və məfkurə xəttinə istiqamət verməlidir.

Səməd Vurğun teatr tənqidinə də ciddi fikir verirdi. Onun vəziyyətini araşdırır, nöqsanlarını açıb göstərməklə, müvəffəqiyyətlərini də razılıqla söyləyirdi. Ədəbi tənqid konfransında dramaturqlar, rejissor və aktyorlar, necə deyərlər qılınclarını sıyırıb düşürlər teatr tənqidinin üstünə və bütün günahları yıxırlar onun boynuna. Həmin konfransda Səməd Vurğun deyir: "Sabit Rəhman, Səməd Vurğun, Adil İsgəndərov və başqa yoldaşlar tənqidimizin həm yazıçılara, həm teatrımıza etdiyi xidmətə göz yummasınlar. Əzizbəyov adına Dövlət Dram teatrının və başqa teatrlarımızın bu günki yüksək səviyyəyə gəlib çatması işində tənqidimiz çox böyük və aktiv rol oynamışdır" (4).

Sözü gedən illərdə tənqidçilər ideoloji və siyasi cəhətdən çox çətin, ağır və sərt qanunların hökm sürdüyü şəraitdə yazıb yaradırdılar. Yəni, bu dövrlərdə sovet cəmiyyəti həm ideologiya, həm də siyasi cəhətdən sarsılmaz bir mövqeyə malik idi. Ədəbiyyatda və ədəbi tənqiddə, eləcə də teatrda və teatr tənqidində, ümumiyyətlə mədəniyyət, ədəbiyyat və incəsənətdə vahid bir fəlsəfi təfəkkür, bir dünyagörüş hakim idi, hər şey marksizm-leninizm ideologiyasına tabe idi, marksist metod əsas götürülürdü; hər şey bu metod çərçivəsində qiymətləndirilirdi. Tənqidçi Şamil Salmanovun çox haqlı olaraq qeyd etdiyi kimi, "Ədəbiyyatda sovet cəmiyyətini təsvir etmək məsələsi bədii yaradıcılıq məsələsi olduğu qədər də siyasi məsələ idi" və heç şübhəsiz ki, o dövrün tənqidçiləri də ideologiyaya uyğun hərəkət etməli olurdular.

**Ədəbiyyat**:


1. Arif M. Dumanlı Təbriz / "Kommunist", 30 may 1945.
2. Abbas Mirzə Şərifzadə haqqında xatirələr. Bakı, ATC, 1963, s.87.
3. Vurğun S.."Vaqif" əsəri haqqında / "Ədəbiyyat qəzeti", 31 may 1946.
4. VurğunS.. Əsərləri. 6 cilddə. Dördüncü cild. Bakı: Azərb. EA nəşr., 1963.


\

**Нармина Агаева**

**О проблеме метода в театроведении: восприятие и осмысление**

**Резюме**

В статье рассматривается общая ситуация азербайджанской театральной критики в 1950-60-х годах. Анализируются статьи и рецензии, доклады и, выступления ряд филологов, в частности М.Арифа, писателей и драматургов, в их числе Самеда Вургуна на театральные постановки тех лет.

**Ключевые слова:** спектакль, театроведение, критика, Мамед Ариф, Самед Вургун.

**Narmina Aghayeva**

**On the problem of the method in theater studies: perception and understanding**

**Summary**

The article discusses the general situation of Azerbaijani theater criticism in the 1950-60s. Articles and reviews, reports and speeches are analyzed by a number of philologists, in particular M. Arif, writers and playwrights, including Samad Vurgun for theatrical productions of those years.

**Keywords**: performanse, theater science, criticism, Mammad Arif, Samad Vurghun.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 03.05.2019**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 10.05.2019**
**Məqalənin çapa qəbul olunma tarixi: 04.06.2019**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: müəllim Elçin Cəfərov**
**ADMİU-nun Elmi Şurasının 06 iyul 2019-cu il, 09 saylı qərarı ilə çap olunur**